*Peşə təhsili və insan kapitalı. Cild 5, №2, 2022, s.32-37*

# RƏNGLƏRİN MEYDANA GƏLMƏSİ, ONLARIN TƏBİƏTİ, XARAKTERİK XÜSUSİYYƏTLƏRİ, İNSAN HƏYATINDA ROLU VƏ ƏHƏMİYYƏTİ



**Rəfail Cəfərov,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təsviri incəsənət və onun tədrisi texnologiyası kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: rafayil.1949@mail.ru*

**UOT:** 37; 75

**Xülasə**. *Məqalədə rənglərin meydana gəlməsi haqqında e.ə. IV əsrdən başlayaraq, müxtəlif dövrlərdə aparılmış tədqiqat işləri, həmin dövrlərin alim və filosoflarının rəngin mənşəyi, müxtəlif rəng hadisələri və onun müxtəlif təzahürləri haqqında söylədikləri maraqlı fikirləri öz əksini tapmışdır. Rənglərin təbiəti, fiziki, kimyəvi xassələri və onların xüsusiyyətləri ətraflı araşdırılaraq təhlil edilmiş, eyni zamanda məqalədə rənglərin qavranılması, insan əhval-ruhiyyəsinə psixoloji təsiri və rənglərin insan həyatındakı rolundan bəhs edilmişdir. Müəllif rənglərə görə insan xarakterinin müəyyən edilməsi barədə də çox maraqlı faktlar və mülahizələr irəli sürmüşdür.*

***Açar sözlər:*** *rəng, rəsm, təbiət, rəngkarlıq, xassə, xüsusiyyət, kolorit, ton, ritm, kontrastlıq.*
***Key words:*** *color, drawinq, nature, painting, properties, feature, coloring, tone, rhythm, contrast.*
***Ключевые слова:*** *цвет, рисунок, природа, цветоведение, свойства, особенность, колорит, тон, ритм, контрастность.*

**Rənglər haqqında ümumi məlumat**

Rəngkarlıq haqqında elm perspektiva kimi qədimdən meydana gəlmişdir. Hələ eramızdan əvvəl IV əsrdə qədim yunan alimi, filosof Aristotel rəngin mənşəyini, müxtəlif rəng hadisələrini və onun müxtəlif təzahürlərini izah etməyə çalışmışdır. İtaliya intibah dövrünün dahi rəssamı Leonardo da Vinçi də rənglərlə bağlı təcrübələr və tədqiqat işləri aparmış və özünün ***"Rəngkarlıq haqqında traktat"***ını – monumental elmi əsərini yazmışdır. O, əsərində zəmanəmizin rəssamları üçün böyük praktiki əhəmiyyət kəsb edən rəng haqqında məlumat verir.

Göründüyü kimi, rənglərin araşdırılması çox qədim tarixə malikdir. Ta qədim zamanlardan insanlar ***"rənglərin dilini"*** oxumağa xüsusi əhəmiyyət verirdilər. Bu isə miflərdə, xalq dastanlarında, nağıllarda, müxtəlif dini və mistik təlimlərdə öz əksini tapır.

Rəng informasiyanın ən mühüm növlərindən biridir. Tədqiqatçıların apardığı çoxsaylı eksperimentlərin nəticələrinə uyğun olaraq alimlər belə bir nəticəyə gəlmişlər ki, insanın bu və ya digər rəngi seçməsi şəxsiyyətin milli və fərdi xüsusiyyətindən asılıdır. Alimlərin fikrincə, bu və ya digər rəngə üstünlük verməklə müəyyən anda insanların malik olduğu gizli xüsusiyyətləri əks etdirir.

Rənglərin qədim simvolikası və onların müxtəlif mədəniyyətlərdə təfsiri rənglə insanın emosional vəziyyəti arasındakı qarşılıqlı əlaqə nəzəriyyələrində də öz təsdiqini tapır. Rəngin

qavranılması insanın emosional vəziyyətindən asılıdır. Bu onunla izah olunur ki, insan öz emosional vəziyyətindən asılı olaraq, bir rəngə doğru meyillidir, digərinə laqeyddir, üçüncüsünə isə meyilli deyil. Bu qanunauyğunluğu XX əsrdə isveçrəli psixoloq Maks Lyuşer kəşf etmişdir. Öz rəng testini yaradarkən Lyuşer nəzərə aldı ki, insanın rəngi qavraması həyat tərzi və uzun müddət tarixi inkişaf nəticəsində ətraf mühitlə qarşılıqlı fəaliyyəti nəticəsində formalaşmışdır. Lyuşer bununla yanaşı, daha vacib bir nəticə də əldə etmişdir. Rəng yalnız insanın emosional vəziyyətindən asılı olaraq, onun müvafiq reaksiyasını doğurmur, həm də müəyyən dərəcədə emosiyanı formalaşdırır.

**Rəng** – müəyyən uzunluğa malik dalğalı işıq qıcıqlandırıcılarının göz bəbəyinə düşməsi nəticəsində yaranan sensor təəssüratıdır. Oradan isə bu impulslar neyron şəbəkələr vasitəsilə beyinə ötürülür və bu da rəng kimi qavranılır. Ətrafdakı obyektlərin rənglərinin qavranılması həmişə subyektivdir, çünki o həmişə baxanın baş beynində canlanır və formalaşır.

Qaranlıqda heç bir rəngi görmürük. İşıq göz bəbəyinə düşərkən o öz təsiri ilə gözümüzdə işıq duyğusuna səbəb olur və işıq dalğaları gözə məruz qaldıqda bu da bizdə rəng hissi yaradır. Müxtəlif uzunluqlu işıq dalğaları gözə düşərkən müxtəlif rəngli hislər yaradır. Ən böyük dalğa uzunluqları qırmızı və sarı hissi verir, ən qısa dalğa uzunluqları isə mavi və bənövşəyi hisləri yaradır. Günəş işığı bütün rəng dalğalarını özündə ehtiva edir. Onları qarışdırarkən gözdə ağ rəng təəssüratı yaradır.



**Spektr rəngləri**

Göründüyü kimi, spektrin rəngləri həmişə zolaqda müəyyən bir ardıcıllıqla düzülür: ***qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyi.***

İ.Nyutonun ilk elmi işləri, məhz işıq şüalarının tədqiqi ilə bağlı idi. XVII əsrdə İ.Nyuton "Optika" adlı fundamental əsərini işləyərkən müəyyən etmişdir ki, ağ günəş şüası çoxsaylı rənglərin qarışığından ibarətdir. O sübut etmişdir ki, prizmanın köməyi ilə ağ rəngi onun tərkib hissələrinə ayırmaq olar.




*Günəş spektri*



*Göy qurşağı*

Təbiət hadisələrinə nəzər salsaq görürük ki, yağışdan sonra günəş şüası buludların arasından süzülərək səmadakı yağış damcılarına məruz qalaraq sınır və əks olaraq səmada rəngarənglik yaradır. Buna *göy qurşağı* və ya *günəş spektri* də deyilir.

Göründüyü kimi, İ.Nyuton məhz elə bu təbiət hadisəsinə əsaslanaraq ağ işığın tərkib hissələrinə ayrılmasını sübut edə bilmişdir.

**Rənglərin təbiəti və xassələri**

Rənglərin təbiəti çox zəngin və rəngarəngdir. Biz rənglərin təbiətində müxtəlif uyğunluq görə bilirik. Lakin əlavə rənglərin ahəngi (ritmi) hər dəfə bizə rənglərin xüsusi qızğınlığını və parlaqlığını verir. Təbiətdə gördüyümüz rənglər öz ilk xassələrini, təmizliyini olduğu kimi saxlamır, yəni hər bir predmetin rənginə müxtəlif rənglərin təsiri olur. Çünki predmetlər konkret mühit içərisində olduğundan həmin mühitdə yerləşən bütün rənglər, o cümlədən havanın və səmanın rəngləri bir-birinə təsir göstərir. Ona görə də baxış nöqtəsindən yaxında olan predmetlərin rəngləri uzaqdakılardan parlaq və aydın qavranılır. Rənglərin gücü işığın təsiri nəticəsində dəyişir. Burada rənglərin bir-birinə münasibəti də mühüm rol oynayır, yəni rəng bu və ya digər predmetin sabit və daimi xassəsi olmayıb, ətraf mühitin rəng müxtəlifliyi ilə əlaqədar olaraq yeni-yeni xassələr kəsb edir. Gördüyümüz bütün əşyaların rəngləri günəş spektrində olan rənglərin saysız-hesabsız qarışığından əmələ gəlir.

**Xromatik və axromatik rənglər**

Günəş spektrində 7 rəngin olmasına baxmayaraq, təbiətin bizə bəxş etdiyi 3 əsas rəng mövcuddur:



*qırmızı* *sarı* *göy*

Bu rəngləri müəyyən nisbətlərdə qarışdırmaq yolu ilə saysız-hesabsız rənglər almaq mümkündür. Bu rənglər əlavə rənglər adlanır.



*Əlavə rənglər*

Mövcud rənglər rəng şkalasına görə 2 dərəcəyə bölünür: ***xromatik*** və ***axromatik*** rənglər. Günəş spektrində olan bütün rənglər xromatik rəng qrupuna daxildir.




*Xromatik rənglər*

Spektrin kənar rənglərini (qırmızı, bənövşəyi) qarışdırsaq onların arasında keçid olan tünd qırmızı (pur-pur) rəng alarıq.



*Nyutonun rəng dairəsi*

Spektr rəngləri eyni ardıcıllıqla aralıq rəng (tünd qırmızı) ilə düzsək, rəng dairəsini alarıq. Bu, Nyutonun rəng dairəsi adlanır.

Göründüyü kimi, ağ və qara rəng günəş spektrində iştirak etmir. Bu rənglər rəngsiz-sönük və ya axromatik rəng adlanır. Bura boz rənglər də daxildir ki, onlar da  ağ və qaranın qarışığı yolu ilə alınır.




Bu rənglərin miqdarını dəyişməklə, yəni suyun miqdarını artırmaqla boz rəngin çoxsaylı tonlarını alarıq. Bu xüsusiyyət eynilə bütün rənglərə də aiddir.



*Boz rəngin tonları*

Axromatik rənglər öz işıqlığına görə fərqlənirlər. Onlar özlüyündə neytral olmasına baxmayaraq, rəssamın praktiki işində çox böyük rol oynayır. Onların hesabına biz başqa rənglərin çığırmasını (qışqırmasını) artırıb azalda bilirik. Bundan başqa, qara rəngi bir neçə başqa rənglərlə qarışdıraraq yeni rəng alırıq. Eyni zamanda əsas rəngləri eyni nisbətdə qarışdırsaq qara rəng alarıq.



*Qara rəngin qarışığı ilə yeni rənglərin alınması*

**İsti və soyuq rənglər**

Rənglər öz xassələrinə görə şərti olaraq 2 yerə bölünür: ***isti rənglər*** və ***soyuq rənglər.*** İsti rənglər (qırmızı, sarı, narıncı və onların bütün tonları) insana sanki gümrahlıq bəxş edir, soyuq rənglər (yaşıl, göy, bənövşəyi və onların bütün tonları) isə hisslərimizdə bir növ sakitlik və sərinlik doğurur.



*İsti rənglər* *Soyuq rənglər*

Adətən, soyuq rənglər predmetləri uzaqlaşdırır. Məsələn, uzaqdan görünən dağların rəngi mavi-bənövşəyi olur. Tablo işləyərkən arxa plan, dərinlik və perspektiva soyuq rənglərlə verilir. İsti rənglərdə isə müəyyən yaxınlıq duyulur. Ona görə də tabloda ön plan – yaxınlıq isti və parlaq rənglərlə işlənilir.

**Rəng münasibəti**

Rəssam tabloda ən işıqlı səthi təsvir edərkən ağ rəngdən istifadə edir. Halbuki, ağ rəng günəş işığından qat-qat zəifdir. Buna baxmayaraq, rəssam işıqlı bir yeri təsvir edərkən olduqca həyati təəssürat yarada bilir. Bunun üçün rəngin gücünü artırır. Məsələn, qara rəngin yanında ağ rəng daha güclü təsir bağışlayır və əksinə. Sarı, qırmızı, yaşıl rənglər göy rəngin yanında daha parlaq görünür və əksinə. Bu xüsusiyyət ***kontrastlıq – əkslik*** adlanır və bütün rənglərə aiddir.



*Rəng kontrastlığı*



*Rəng münasibəti*

Rəng dairəsində bir-birinə zidd olan rənglər ***kontrast rənglər*** adlanır. Bu rənglər bir-biri ilə qarşılıqlı ziddiyyət təşkil edir, yəni əks təsirdədirlər.



***Kontrast rənglər***

Hər bir rəngin müxtəlif təzadları olur. Məsələn, istənilən rəngin (bənövşəyi, yaşıl və s.) bir neçə keçidini müşahidə etmək mümkündür. Buna bəzən ***ton*** da deyilir.



***Rəng ahəngi***

Ton şəkildə müxtəlif rəng keçidlərini özünə tabe edən başlıca rəng ahəngidir. Burada bir rəng digərindən fərqlənir: ***qırmızı, göy, yaşıl*** və s. Bu da əsərin koloritini təşkil edir.

Naturada ən ağ olan səth tabloda ən ağ rənglə, yaxud ən parlaq rəng ən parlaq boya ilə işlənmir. Əks rənglərin qarışdırılması həmin rənglərin daha güclü çıxmasına səbəb olur.

Dekorativ üslubda işləyən rəssamlar rənglərin kontrastlığından – əksliyindən ustalıqla istifadə edirlər, yəni qarışdırılmış rənglərin bir-birinə yaxınlığı və münasibəti yolu ilə istənilən rəng münasibətini almağa nail olurlar.

Rəngkarlıq əsərində rənglərin birləşməsi, ***rəng harmoniyası*** – kolorit adlanır (latınca ***kolorit "rəng", "boya"*** deməkdir).



Kolorit rəssamlıq əsərinin bədii emosional qüvvəsini müəyyənləşdirən ən güclü vasitədir. Görkəmli rus rəssamı Repin koloriti musiqidə olan akkorda bənzətmişdir. Rəngkar üçün kolorit müğənni üçün səs kimi bir şeydir. Kolorit rənglərin və işığın ahəngdarlığından alınır. Kolorit parlaq və "təmiz" (lokal) rənglərin, həmçinin də qarışdırılmış rənglərin münasibətlərinə əsaslanır.

Rənglər – açıq, tünd, parlaq və tutqun tonların konkret qarşılaşdırılması yolu ilə əsərin bütövlüyünü tamamlayan güclü vasitədir.

**Rənglərin insan əhval-ruhiyyəsinə psixoloji təsiri**

Rənglər insan əhval-ruhiyyəsinə təsir göstərən ən güclü keyfiyyətlərə malikdir. Rənglərin hər biri insan hissinə olduğu kimi və ya başqa cür təsir edir. Rənglər insan psixologiyasına müsbət və mənfi təsiretmə xüsusiyyətinə malikdir. Rənglərin insan psixologiyasına müsbət təsiri insanı dincəldir və rahatlandırır, mənfi təsiri isə ətrafdakı mənfi enerjini özünə cəlb edib, psixologiyaya çox pis təsir edir.

İnsanın ətraf mühitdə özünə müsbət aura yarada bilməsi, məhz öz əlindədir. Çünki ətrafda olan rənglər insanlara gözlə görə bilmədikləri müəyyən enerjini ötürə bilmək psixologiyasına uyğun olmalıdır. Əks halda orqanizmin nə fiziki, nə də psixoloji vəziyyətini tarazlaşdırmaq mümkün olmaz. Çünki geyinilən geyimlərin rəngləri həm fiziki, həm də psixoloji olaraq orqanizmi tarazlaşdırır və müsbət enerji ilə təmin edir.

Rənglər, nəinki insan ömrünü daha da parlaq edir, həm də insanın əhval ruhiyyəsini müəyyənləşdirir, onun fikir və əməllərinə təsir göstərir. Biz rəngləri fəqləndirərək, bizi əhatə edən ətraf aləmin obyektlərini daha yaxşı tanıya bilirik. Rənglər, həmçinin özündə ünsiyyət üçün vacib olan informasiya daşıyır. Rəng qavranılması psixologiyası istiqamətində aparılan araşdırmalar əyani şəkildə rənglərin ayrı-ayrı həyati situasiyalara necə təsir etdiyini göstərir. Ona görə də rəngə olan münasibət həmişə emosional olub, emosional olaraq da qalır.

**Rənglərin insan həyatında rolu**

Hər bir rəngin insan həyatına özünəməxsus təsiri vardır. Alimlər hansı rəngə üstünlük verməsindən və həmin rənglərin xarakteristikasından istifadə edərək insanların sağlamlığı barədə diaqnostik fikirlər irəli sürüblər. İnsan hansısa rəngin təsirindən xəstələnə və ya sağala, uğur qazana və ya uduza bilər. Sübut olunub ki, qadın və kişilərin rəngləri qavramasında fərq mövcuddur. Rəng seçimi zamanı insan bunu yaşına və cinsinə uyğun arqumentlərlə əsaslandırır. Təsviri incəsənətin əsas təsvir vasitəsi rənglərdən ibarətdir. Dünyanın bütün zənginliyini və onun gözəlliyini verən rəngdir. Rəssam rəng vasitəsilə əşyanın keyfiyyətini və onun rəngini verir. O, rəng vasitəsilə əşyaların, materialların və onun

xassəsinin formasını üzə çıxarır.

XVIII əsrdə yaşamış fransız rəssamı Şarden demişdir: ***"tablonu rənglərlə yox, hisslərlə də çəkmək olar"***. Rənglərin bədii təsir qüvvəsini duyub hiss etmədən bu və ya digər həyat hadisəsinin mahiyyətini rəssamın tablosunda ifadə etmək çətindir.

İnsanın rəng qavrayışları onun psixoloji və daxili əhval-ruhiyyəsi ilə bağlı olur. Bəzi rənglər insanda ruh yüksəkliyi və sevinc oyatdığı halda, başqalarına qəmginlik doğurur. Əgər ***qara rəng***, adətən insanda matəm hissiyyatı ilə əlaqələndirilərsə, inqilabın rəmzi olan ***qırmızı rəng*** mərdlik, şüçaət, coşqunluq kimi hislər oyadır.

Rəngkar üçün ən tutqun çalarlardan başlamış ən zəif çalarlara qədər olan rəng qamması təxminən musiqiçi üçün olan yeddi not kimidir. Böyük rus rəssamı Repin rənglər haqqında belə demişdir: ***"rənglər bizim silahımızdır, onlardan elə istifadə etməliyik ki, o bizim fikrimizi tam ifadə etsin".***

**Rənglərə görə insan xarakterinin müəyyən edilməsi**

Rənglərin özünəməxsus psixoloji təsirləri olduğundan seçdiyimiz rəng şəxsiyyətimizi, hadisələrə olan münasibətimizi və iç dünyamızı göstərir. Bu səbəbdən də insanların sevdiyi rənglər onların xarakterini nümayiş etdirə bilmək xüsusiyyətinə malikdir.

**Ağ** – bütün rənglərin sintezi olduğuna görə ideal rəngdir. Saflığı, təmizliyi və məsumiyyəti təmsil etdiyinə görə gəlinlik seçimlərinin vazkeçilməz rəngidir. Bundan əlavə, canlılıq verən pozitiv bir enerjiyə malikdir. Ağ rəngi sevənlər həyəcanını göstərməyən, sakit insanlardır. Özlərinə güvənirlər, nəzakətlidirlər, dəb-dəbəni sevmirlər. Səs-küyü sevdikləri üçün evlərində keçən vaxtlarını ən xoşbəxt anları hesab edirlər.

**Qırmızı** – cəsarətlilik, iradəlilik, hökmranlıq, dinamizm, xoşbəxtlik, eşq, mehriban insanlığı təmsil edir. Gördüyünüz bir işdə nə qədər əzmli və qərarlı olduğunuzu göstərə biləcəyiniz bir rəngdir. Qırmızı rəngi sevən insanlar tez həyəcanlanır, əsəbiləşir və özündən çıxırlar. Tənbəlliyi sevmir, başqalarının düşüncələrinə əhəmiyyət vermirlər. Cəsarət və sosiallıqları ilə seçilirlər.

**Narıncı** – intuisiyaya malik olan və xəyalpərəst insanların sevimli rəngidir. Xoşbəxtlik, sağlamlıq və gücü təmsil edir. Narıncı rəng çox vaxt istilik hissi verir və iştahı açır. Gülərüz, istiqanlı insanların rəngidir. Ətrafındakılarla necə davranacaqlarını bildikləri üçün onları dava edərkən görmək demək olar ki, imkansızdır. Eyni zamanda bu rəng çoxüzlülük və riyakarlıq rəmzidir.

**Sarı** – cəsarəti, rahatlığı, aydınlığı təmsil edir. Sarı rəngi seçənlər hər şeyi öyrənməkdən, asan uyğunlaşma qabiliyyətinə və insanların xoşuna gəlməkdən, onları cəlb etməkdən zövq almağı sevirlər.

**Göy** – səma, sakitlik və rahatlıq rəngidir. Göy rəngi sevənlər təvazökar olurlar. Bu rəngi sevən insanların ətrafındakı insanların inamına, xeyirxahlığına daha böyük ehtiyacı var. Göy rəngə üstünlük vermək insanın sakitliyə olan fizioloji və psixoloji ehtiyacını əks etdirir. Xəstəlik və yorğunluq zamanı göy rəngə olan ehtiyac artır.

**Mavi** – sıxıntı, üzüntü, güvən və sədaqəti təmsil edir. Bu rəngi sevənlər məsuliyyətli olurlar. Ətrafındakılara qarşı diqqətcil olduqlarına görə çox sevilirlər. Hər zaman nədənsə qorxurlar. Sabit fikirli olduqları üçün həmin qorxulardan yaxa qurtarmaqda çətinlik çəkirlər.

**Yaşıl** – təbiət, həyat və yaz rəngidir. Yenilənməyi, təbiiliyi və yaşamı təmsil edir. Təmizqəlbli, itizəkalı, əylənməyi sevən insanların rəngidir. Bu rəngi sevən insanlar yad təsirdən qorxurlar. Yaşıl rəng gizli, potensial enerjini ifadə edir, iradi gərginlik dərəcəsini əks etdirir və bu səbəbdən də yaşıl rəngi sevən insanlar özünə inamlı olmağa çalışırlar. Yaşıl rəng, eyni zamanda seyid rəngidir.

**Qəhvəyi** – bu rəngi sevənlər adət-ənənələri və ailələrini çox sevirlər. İnsanlara güc, inam və sağlamlıq hissi verir. Möhkəm və inamlı insanların seçimi olmaqla, təbiətən sakit insanlar da bu rəngdən tez-tez istifadə edirlər. Qəhvəyi rəngə meyil, həmçinin müəyyən fiziki yorğunluğa işarə edir. Dəbdəbəni xoşlamırlar. Bəzən çox xəsis olurlar. Qarşılarına çıxan bütün əngəlləri dəf edirlər.

**Çəhrayı** – çəhrayı rəngi sevənlər həyatı sevən, həyatdan zövq almağı bacaran insanlardır. İnsanları sakitləşdirməyə qadir olan bir rəngdir. Bu rəngi sevmək daha xeyirxah olmağa çağırır. Lazım olanda ciddi olur, həyatın sadəcə əyləncədən ibarət olmadığını bilirlər. Həddindən artıq praqmatik olan insanları çəhrayı rəng qıcıqlandırır.

**Bənövşəyi** – səviyyəni, dəbdəbəni, zərafəti və zənginliyi təmsil edir. Bənövşəyi rəngin seçimi romantizm, xeyirxahlıq və mərhəmət rəmzidir.

Hər kəslə yaxınlıq qurmurlar, ətrafındakıları səviyyələrinə görə seçirlər. Lakin bu insanlardan istifadə etmək üçün deyil, sadəcə yüksək səviyyəli olduqları üçün seçirlər.

**Qara** – qara rəng və qara rəngin müxtəlif çalarlarında geyinən insanlar çox ciddi və istedadlıdırlar. İdarəetmə, güc, zərafət kimi çox mənası var. Qara rəngi sevənlər fikir azadlığına önəm verirlər. Hər hansı bir işi görəndə yüz ölçüb, bir biçirlər və məqsədlərinə çatmaq üçün əllərindən gələni edirlər. Sərt olduqlarına görə ətrafındakılarla soyuq davranırlar. Lakin dostluqda dürüst olurlar.

**Boz** – ağıl, bacarıq, dərrakəli  və çalışqanlığı təmsil edir. Gördükləri işdə yaxşı olmağa çalışırlar. Hər şeydən şübhələnən və hansısa bir qərar qəbul etməzdən əvvəl çox düşünən insanların sevimli rəngidir. Çox vaxt boz rəng yorğunluq zamanı ətraf dünyanın qıcıqlandırıcılarından qoruyan divardır.

**Nəticə.** Beləliklə, dünyanın bütün zənginliyini və onun gözəlliyini verən rənglərin yaranma tarixi, onların xassələri, insan həyatında rolu, insan əhval-ruhiyyəsinə psixoloji təsiri və s. haqqında geniş məzmunlu təhlil verilməsini lazım bildik ona görə ki, rənglərin nəyə qadir olması barədə məktəblilər, gənclər, geniş oxucu kütləsi, şəkil çəkməklə məşğul olanlar dolğun və düzgün məlumat əldə etsinlər. Hər bir şəxs həyat fəaliyyətində, məişətdə, ev dizayn işlərində, geyimlərində düzgün rəng seçimi etsinlər və rənglərin yuxarıda verilən xüsusiyyətlərindən və xarakteristikasından yararlana bilsinlər. Çünki bu çox önəmli bir məsələdir. Hər kəs ətrafındakı yoldaşlarının və digərlərinin xarakterini, xasiyyətini asanlıqla müəyyənləşdirə bilər. Eyni zamanda yuxarıda qeyd edildiyi kimi, hər bir rəngin özünəməxsus təsir  və informasiya ötürmə xüsusiyyəti olduğundan seçdiyimiz rəng bizi xəstələndirə və sağalda bilər, həmçinin də nailiyyətlər qazandıra bilər. Ona görə də rənglər haqqında müfəssəl biliklərə yiyələnməyi tövsiyə edirik.

## ƏDƏBİYYAT


1. Анисимов Н.Н. Основы рисования. Москва, Стройиздат, 1977, 168 с.
2. Həbibov N.D. Rəssamlıqdan söhbət. Bakı, 1961, 160 səh.
3. Казаринова В.И. О красоте и композиции. Москва, Экономика, 1973 с.
4. Пучков А.С., Триселев А.В. Методика работы над натюрмортом. Москва, Просвещение, 1982, 160 с.
5. Рабкин Е.Б., Соколова Е.Г. Цвет вокруг нас. Москва, Знание, 1964, с. 4-19.
6. Рожкова У.Е., Макоед Л.Л. Изобразительное искусство. VI класс. Москва, Просвещение, 1969, 255 с.
7. Смирнов Г.Б. Живопись. Москва, Просвещение, 1975.
8. Шаронов В.В. Свет и цвет. Москва, Физматгиз, 1961.


**R.Jafarov**

## Formation of colors, their nature, characteristics, and role and importance in human life


### Abstract

The article reflects the research work carried out in different periods since the IV century BC on the formation of colors, the interesting opinions of scientists and philosophers of those times about the origin of color, different color phenomena and its various manifestations. The nature, physical and chemical properties of colors and their properties have been studied and analyzed in detail and the article discusses the perception of colors, the psychological impact on the human mood and the role of colors in human life. The author also puts forward very interesting facts and considerations about the definition of human character by color.


**Р.Джафаров**

## Образование цветов, их природа, характеристика, роль и значение в жизни человека


### Аннотация

В статье отражены проводившиеся в разные периоды начиная с IV века до н.э. исследовательские работы по образованию цветов, интересные мнения ученых и философов того времени о происхождении цвета, разных цветовых явлениях и различных его проявлениях. Подробно изучены и проанализированы природа, физические и химические свойства цветов и их характеристики, а также  в статье рассматриваются восприятие цветов, психологическое влияние на настроение человека и роль цветов в жизни человека. Также автор выдвигает очень интересные факты и соображения по поводу определения характера человека по цвету.